# ƏSƏDOV MALİK HAMİL OĞLU



Əsədov Malik 27 iyun 1962-ci ildə Yevlax rayonunun Havarlı kəndində doğulmuşdur. 1979-cu ildə burada orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılmışdır. Qazaxıstanda hərbi xidmətini başa vurub, Mingəçevir şəhər 45 saylı Müstəqil Hərbiləşdirilmiş Yanğından Mühafizə Hissəsində əmək fəaliyyətinə başlamışdır. Xocalıda, Əsgəranda, Ağdamda, Şuşada gedən ağır döyüşlərdə iştirak etmişdir. Bir müddət sonra bölmə komandiri vəzifəsinə təyin olunmuşdur. Göstərdiyi əla xidmətlərə görə bir neçə dəfə DİN-nin Fəxri fərmanlarına və mükafatlarına layiq görülmüşdür. 1992-ci ilin yanvar ayında düşmənlə döyüşdə iştirak etmək üçün Mingəçevirdən Şuşaya yollanan dəstədə Malik Əsədov da olmuşdur. Yanvarın 18-də ermənilər Nəbilər kəndinə hər tərəfdən hücuma keçirlər. Düşmənin sayı polislərdən xeyli çox idi. Malik Əsədov bir neçə yara alır. Amma o, yenə də son nəfəsinədək döyüşmüş onlarla düşməni öldürmüşdü. Havarlı kəndində dəfn edilmişdir. Ailəli idi. Üç övladı var. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əsədov Malik Hamil oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Təhsil aldığı Havarlı kənd tam orta məktəbi 1992-ci ildən onun adını daşıyır. Həmin məktəbdə və Mingəçevir şəhərində - işlədiyi idarənin önündə qəhrəmanın büstü qoyulmuşdur.